# Vətən müharibəsinin fəlsəfəsi

**III MƏQALƏ**

**Müharibə qələbəyədək aparılır. Və nöqtə.**

**Karl fon KLAUZEVİTS**

### Savaşın Azərbaycan təcrübəsi

Beləliklə, 1993-cü ildən 2020-ci il II Qarabağ savaşına qədər olan müddətdə böyük transformasiya yolu qət edilməli idi. Bu yolun təməlində II məqalədə vurğuladığımız kimi, 3 amil reallaşmalı idi – cəmiyyət bütövləşməli, hakimiyyət – xalq birliyi formalaşmalı və vətəndaşlarda Vətən sevgisi yeni səviyyəyə yüksəlməli. Bütövlükdə, Azərbaycanda cəmiyyət həm həmrəylikdə, həm də dövlət quruculuğunda elə nailiyyət qazanmalı idi ki, qələbə əzmi yüksək olsun.

Bu prosesin tərkibində Lider – hakimiyyət (dövlət başçısının komandası kimi) cəmiyyətin bütün kəsimlərinin aparılan müharibəni ədalətli, müstəqillik, suverenlik, ərazi bütövlüyünün təmini, milli ləyaqətin bərpası, hüquqa uyğun mübarizə kimi qəbul etməsi şərtlərinin ödənməsi prinsipial əhəmiyyət kəsb edirdi. Onun da tərkibində Liderin ədalətli savaş apardığına əhalinin tam əminliyi, cəmiyyətin bütün kəsimlərinin aparılan savaşa eyni prizmadan baxması və müharibəyə münasibətdə dövlət başçısı, onun komandası, ordu və xalqın bir mövqedə olması xüsusi yer tuturdu. Bu faktorların son nəticədə qələbə əzminin səviyyəsi də ciddi əhəmiyyət kəsb edirdi.

Nəhayət, daha geniş kontekstdə müharibənin ölkədaxili şərtlər əsasında ədalətliliyinin müəyyən edilməsi mütləq şəkildə beynəlxalq miqyasda humanitarlıq və hüquqiliklə məzmun və mahiyyətcə uyğunluq təşkil etməli idi. Həmçinin ədalətli müharibə kütləvi surətdə insan hüquqlarının pozulmasının qarşısını almalı, cəmiyyətin ləyaqətini bərpa etməlidir.

Belə görünür ki, Azərbaycanın müasir mərhələdə Vətən müharibəsinin kriteriyaları iki xüsusiyyəti ilə fərqlənir: Birincisi, onlar ierarxik (pilləvari) xarakterlidir, yəni bir-biri ilə daxili məntiqi və məzmun bağlantıları vardır və o, kriteriyaların strukturlaşmasında öz ifadəsini tapmışdır. Bundan başqa, həmin kriteriyalar arasında münasibətlər o səviyyədə olmalıdır ki, vahid sistem təsiri bağışlasın. İkincisi, həmin kriteriyalar, bütövlükdə, yeniləşmə prosesini vahid məcraya və məqsədə yönəltməsini təmin etməli idi. Bu da cəmiyyətdaxili əlaqələri (həmrəylik, inteqrasiya, birlik aspektlərində), hakimiyyət – xalq münasibətlərini tənzimləmək deməkdir.

Lakin fəlsəfi baxımdan burada çox ciddi bir məqam vardır. Yuxarıdakı təqdimatdan görünür ki, ciddi sosial, siyasi, mədəni, hüquqi və geosiyasi-hərbi çətinliklərlə üzləşmiş bir dövlətdə prosesləri birləşdirici məcraya yönəltmək çox çətin məsələdir. Buna nadir hallarda nail ola bilirlər. Azərbaycanla bağlı da vəziyyət əlavə əngəllər nəticəsində, xüsusilə kənar təcavüzə görə, çox mürəkkəb idi.



Bunlara görə, hər Vətən müharibəsinin fərqli fəlsəfi cəhətləri olur. Lakin bütün hallarda Azərbaycanda dağınıq haldan, parçalanma vəziyyətindən monolit və ideyaya fokuslanmış topluma keçidi təmin edən mexanizmlər olmalı idi. Onları aydınlaşdırmaq üçün kontekstə iki anlayış daxil etməliyik. Onlardan biri "liderin siyasi mentaliteti", digəri isə "dövlətçilik mentaliteti"dir.

### Liderin siyasi mentaliteti

"Siyasi mentalitet" hazırda politologiya ilə yanaşı, fəlsəfədə də geniş araşdırılır. "Mentalitet" sözü ümumilikdə şəxsin və kollektivin (toplum, qrup, cəmiyyət, icma və s.) ağlını, intellektini, məişət təsəvvürlərini, ruhi vəziyyətini, dünya duyumunu, psixoloji özəlliklərini, adətini, ənənəsini, bütövlükdə, həyat tərzini, keçmiş, indi, gələcək haqqında təsəvvürlərini ifadə edir.

Lakin bu ümumi təsəvvürdən daha konkret tərifə keçəndə fərqli yanaşmalar özünü göstərir. Bu da anlayışın özünün mürəkkəb məzmuna malik olmasına dəlalət edir. "Siyasi mentalitet" bu təsəvvürlərin üzərində bərqərar olur.

Onu ümumi səviyyədə ona belə tərif verirlər: siyasi mentalitet dərk edilən və edilməyən siyasi təsəvvürlərin, dəyərlərin, qaydaların, müəyyən sosial ümumiliyin stereotiplərinin siyasi gerçəklik sferasında cəmidir (və ya sistemidir). Belə görünür ki, burada siyasi gerçəklik çərçivəsində konkret keyfiyyətlər seçilir. Onların sırasında insan mövcudluğunun bütün aspektləri yer almışdır. O cümlədən, adət-ənənə, dünya duyumu, siyasi təcrübənin ümumiləşməsi və s. amillər vardır. Lider bütün bu keyfiyyətlərin konkret siyasi gerçəklikdə təcəssümüdür.

Vurğulanan məqamlara uyğun olaraq siyasi mentalitetin strukturunu aşağıdakı kimi müəyyən edirlər: siyasi reallıq haqqında dərk edilən və edilməyən təsəvvürlər. Bu, siyasi davranışı idraki motivləşdirmə funksiyası yerinə yetirir; dəyər xarakterli siyasi yönlər müəyyən edir.

Siyasi davranışın dəyər aspektini motivə edir; siyasi attityüd və önqaydaları ifadə edir. Siyasi attityüd siyasi situasiyaya reaksiya vermək özəlliyi, meylini ifadə edir. Sosial kontekstdə çox əhəmiyyətli rol oynayan faktordur. Xüsusilə liderin hər bir situasiyada hansı addımı atmağa meyilli olduğunu xarakterizə edən anlayış kimi prinsipial əhəmiyyət daşıyır.

Növbəti struktur vahidi liderə adət-ənənənin, ailə tərbiyəsinin, təhsilin təsiri nəticəsində onun şəxsiyyət kimi sosiallaşması özəlliyi ilə bağlıdır.

Nəhayət, siyasi mentalitet köklü siyasi və sosial-mədəni dəyişikliklər şəraitində dayanıqlılıqla dinamiklik arasında optimal nisbətin saxlanması ilə bağlıdır. Buna hər bir lider özünün özəl keyfiyyətlərinin verdiyi imkanlar çərçivəsində nail ola bilir.

Daha dərinə getmədən deyə bilərik ki, liderin siyasi mentaliteti onun həm siyasi kimliyini müəyyən edir, həm də fəaliyyətinin məzmunu ilə məqsədi arasında əlaqə yaradır. Bu baxımdan, maraqlıdır ki, müharibənin də xarakterinə liderin siyasi mentaliteti ciddi təsir edir. Çünki kritik situasiyalarda liderin seçimi proseslərin məzmununu və yönünü müəyyənləşdirir.

Burada həm də siyasi mentalitetin müharibənin son məqsədini müəyyən etməkdə oynadığı həlledici rolu nəzərə almaq lazımdır. Buna görə, vətən müharibələri bir-birindən fərqlənə bilərlər. Məsələn, Vyetnamın işğala qarşı apardığı vətən savaşı, Xorvatiyanın və ya SSRİ-nin vətən müharibələrindən fərqlənir. Və bunların hər ikisi Azərbaycanın apardığı Vətən müharibəsindən fərqlənir. Bu fərqləri fəlsəfi kontekstdə daha aydın anlamaq üçün ikinci bir anlayışı daxil etməliyik – dövlətçilik mentalitetini.

### Dövlətçilik mentaliteti

"Dövlətçilik mentaliteti" anlayışına fəlsəfi və elmi ədəbiyyatda rast gəlinmir. Biz bu anlayışı xüsusi məna verərək daxil edirik. Dövlətçilik mentaliteti cəmiyyətin tarixən təkamül etmiş dövlətçilik ənənəsində daim özünü göstərən, idarəetmə, geosiyasi, siyasi, hərbi, müdafiə, diplomatik, təhlükəsizlik, mədəni, sosial, mənəvi, əxlaqi, psixoloji xarakterli kodlardır. Həmin kodlar tarixin bütün mərhələlərində toplumun dövlət qurmaq fəlsəfəsinin əsasını təşkil edirlər və ona motivəedici yön verirlər.

Bu, dərk edilmiş və ya dərk edilməmiş formada ola bilər. Lider və cəmiyyət dövlətçilik mentalitetini dərk edilmiş və ya edilməmiş formada real tətbiq edə bilər. Bunun əsasında siyasi, sosial, mədəni və digər fəaliyyətin ümumi mahiyyəti, xarakteri, məzmunu və məqsədi formalaşır. Məhz məqsəd səviyyəsindəki fərqlər dövlətlərin fəaliyyətləri arasında fərqləri əmələ gətirə bilər. O cümlədən, liderin siyasi mentaliteti ilə qarşılıqlı əlaqədə dövlətçilik mentalitetinin ümumi ruhu Vətən müharibəsinə özəl məna çaları verir. Bir neçə nümunədə bu məqamı izah edək.

### Vətən müharibələrinin bir neçə nümunəsi

Fransanın İkinci dünya savaşında Almaniyaya qarşı apardığı müharibə Vətən müharibəsi adlana bilər. Fransanın son məqsədi ərazilərini azad etmək fonunda dövləti dünyanın aparıcı kəsiminə qaytarmaqdan ibarət olmuşdur. Burada Fransanın "vətən müharibəsi" anlayışına xüsusi məna verdiyi aydın olur. Çünki heç də hər bir vətən savaşı aparan dövlət qarşısına dünyanın elitar liqasına daxil olmaq məqsədi qoymur. Əksəriyyətin heç ağlına da gəlmir. Fransızlar isə birbaşa buna can atdılar və Şarl de Qoll burada möcüzə yaratdı.

Vyetnamlıların Amerika işğalına qarşı apardığı məlum müharibə də vətən müharibəsi adlana bilər. Lakin Vyetnam həmin müharibədən sonra qarşısına nə regional lider olmaq, nə hansısa dövlətlər qrupu yaratmaq və ya başqa dövlətin ərazisinə hücum etmək kimi fikirlərə düşmədi. Koreyalılar da azadlıq savaşından sonra nəinki birləşdilər, hətta indiyə qədər də iki dövlət formasında mövcud olmaqdadırlar.

Xorvatiyanın Vətən savaşı müstəqilliyi əldə etməklə məhdudlaşdı. Xorvatiya qarşı tərəfin silahlanmasına nəzarət edə bilmir. ABŞ isə İkinci dünya savaşında SSRİ-nin vətən savaşından bəhrələnərək, Almaniya Federativ Respublikasının bir çox sahələrinə nəzarəti rəsmən ələ aldı. Məsələn, indi də Almaniyanı media sferasına Vaşinqton nəzarət edir. Bundan başqa, vətən savaşı aparan SSRİ Almaniyanı parçaladı – AFR və ADR yarandı. Yəni Vətən savaşından sonra SSRİ başqa dövlətin ərazisinə nəzarət mexanizmi qurdu.

Belə görünür ki, mahiyyətcə yadellilərə qarşı mübarizə xarakterində olan müharibənin gedişində işğalçıya qarşı vuruşanlardan biri özü işğalçı ola bilər. Bu, Vətən müharibəsi kontekstində bir paradoksdur, lakin tarixdə belə faktlar mövcuddur. SSRİ-nin Almaniyaya qarşı apardığı və Böyük Vətən müharibəsinin nəticələrindən birinin yuxarıda vurğuladığımız kimi, sovetlərin nəzarət etdiyi ADR-in yaradılması oldu. Yalnız bir neçə onillikdən sonra Almaniya birləşdi.

Başqa nümunələrə də baxmaq olar. Lakin onların birinin digərindən məqsəd və son nəticə baxımından fərqləndiyini görəcəyik. Bütün bunların fonunda Azərbaycanın müasir Vətən müharibəsinin liderin siyasi mentaliteti və dövlətçilik mentaliteti kontekstində izahı zəruridir. Bu cür araşdırma faktiki olaraq II Qarabağ savaşının Vətən uğrunda mübarizə nümunəsi kimi özəlliklərini aydınlaşdırmağa əlavə imkanlar yaradacaqdır. Öncədən vurğulayaq ki, burada milli ideyanın oynadığı tarixi rol da dərk ediləcəkdir. Milli ideyanın ərazi bütövlüyünün təmin edilməsi kimi müəyyənləşdirilməsinin Azərbaycanda siyasi liderlik mentaliteti ilə dövlətçilik mentalitetinin qarşılıqlı əlaqəsi nəticəsində mümkün olduğu aydınlaşacaqdır. Bunun üçün, təbii ki, Azərbaycanın Vətən müharibəsinə xas olan bir sıra faktorları təhlil etmək gərəkdir.

**(ardı var)**

Füzuli Qurbanov